

# Ümid, güvən, inam ünvanı

## Prezident İlham Əliyevə ümumxalq məhəbbəti tükənməzdir

Cəbhə bölgəsində ermənilərin törətdiyi təxribatlara Azərbaycan Ordusunun cavabı, bu zaman Ali Baş Komandanın nümayiş etdirdiyi sərt mövqe nəinki ölkəmizdə, eləcə də qonşu dövlətlərdə və hətta bütün dünya düzənində ciddi rezonans doğurdu. Hələ antik dövrün filosofları deyirdilər ki, çətinliklər, qəfil sınaqlar nəinki adi insanların, hətta şahların və kralların, xalqların və dövlətlərin xarakterini də sınağa çəkir, mahiyyətini üzə çıxarır.

Bir neçə gün davam edən döyüşlər, əsgərlərimizin rəşadətlə vuruşması, düşmənə bir-birindən sarsıdıcı zərbələr endirməsi öncə onu sübut etdi ki, bütün xalqın dilindən düşməyən “Ali Baş Komandan əmr edərsə, istənilən vaxt döyüşməyə hazırıq” ifadəsi boğazdan yuxarı deyilən söz deyil. Bu, içimizdəki qəzəbdən, işğalçını yerində oturtmaq istəyindən doğan təbii hissdir. Yüzlərlə ölkə vətəndaşının, müxtəlif peşə sahiblərinin Azərbaycan Prezidentinə son günlər yazdıqları məktubların məzmunu da bunu sübut edir. Bu məktubları oxuyanda görürsən ki, indi Azərbaycanda adi məktəblidən təqaüdçüyə, sıravi əsgərdən generala kimi hamının ruhuna bir döyüş cəngisi hakim kəsilib, hamının inam, ümid, güvən ünvanı Azərbaycan Ordusu və Ali Baş Komandan İlham Əliyevdir!

Ağdam rayonu 36 saylı məktəbin 11-ci sinif şagirdi Yaşar Vəliyev həmişə erməni təxribatlarının şahidi olduğunu, son günlərdə isə Milli Ordumuzun erməni təxribatlarına tutarlı cavab verməsindən qürurlandığını yazır: “Biz Prezidentimizlə fəxr edirik! Vətənimiz uğrunda, Sizin uğrunuzda döyüşməyə hər an hazırıq! Biz Vətənimizin və Sizin müsəlləh əsgərinizik”. Zərdabdan Vüqar Rəhimov isə Ali Baş Komandana yazır ki, nəhayət, düşmən qüdrətli Azərbaycan Ordusunun gücünü gördü: “Ordumuzun uğurları Sizin apardığınız uğurlu daxili və xarici siyasətin bəhrəsidir. Buna görə Sizə ailəmizin adından təşəkkür edirəm”.

Cəbhədəki son hadisələr şəhid analarını daha çox riqqətə gətirmiş, onlarda övladlarının qanının yerdə qalmayacağına ümidi daha da artırmışdır. Onlardan bir qrupu Prezidentə ünvanladığı məktubda yazır: “Tutduğunuz bu haqq yolda Sizə Allahdan böyük-böyük uğurlar diləyirik! Atdığınız qətiyyətli addımı ilk Qələbəmiz hesab edərək ətrafınızda birləşməklə əmr və göstərişlərinizə daim hazırıq.

*Mehdiabad şəhid anaları adından dərin hörmətlə Musayeva Xanım İsmayıl qızı, Muradova Qənfilə Balaca qızı, Orduxanova Ülkər Teymur qızı, Həsənova Vəcihə Əsgər qızı, İsmayılova Şəfiqə Dünyamalı qızı, Məhərrəmova Dilşad Sarı qızı, Mehrəliyeva Nazpəri Ramazan qızı”.*

Erməni separatçılarının törətdikləri təxribatlara ordumuzun verdiyi layiqli cavab keçmiş döyüşçülərimizi də ruhlandırmışdır. Bakı Müharibə Əlil və Veteranları İctimai Birliyinin üzvləri Prezidentə göndərdikləri müraciətdə yazırlar: “Hörmətli Ali Baş Komandan, Prezidentimiz İlham Əliyev! Biz bir nəfər kimi torpaqlarımızın geri qaytarılması uğrunda əsl qəhrəmanlıq göstərərək şəhid olmuş övladlarımızın ruhu qarşısında baş əyirik. İnanırıq ki, bizim igid, cəsur, əyilməz və qürur doğuran ordumuz qısa bir müddətdə terror, faşist, vandal və çirkin niyyətlərini həyata keçirən erməni quldurlarının belini qıracaqdır. Sizə ölkəmiz naminə aparılan siyasətdə uğurlar arzu edirik! İnanırıq ki, biz Qələbəni görəcəyik!”

Prezidentə göndərilən belə məktubların sayı yüzlərlədir. Sözlər, fikirlər, ünvanlar və imzalar müxtəlif olsa da, məzmun eynidir. Son döyüşlərdə ordunun və dövlət başçısının qətiyyəti hamıya sevinc və qürurdan başqa, bir etibarlı güvən də bəxş edib. Xalq bir daha əmin olub ki, Azərbaycan Prezidenti içdiyi anda sadiqdir, dövlətimizin mənafeyini göz bəbəyi kimi qoruyur, düşmənə bir qarış torpaq belə verilməyəcəkdir!

Çox fərəhlidir ki, bu hisslər vətəndən kənarda yaşayan soydaşlarımıza da hakim kəsilib. Türkiyənin İzmir şəhərindən Dünya Azərbaycanlıları Konqresinin sədri Asif Qurban yazır ki, hadisələr başlayan gündən onlar da Azərbaycanın haqlı mövqeyini müdafiə etmək üçün əllərindən gələni edirlər: “Bu günlər ərzində Dünya Azərbaycanlıları Konqresi və Azərbaycan Qardaşlıq və Əməkdaşlıq Dərnəyinin təşəbbüsü ilə İzmirdəki bütün sivil təşkilatlar və vətəndaşlarımız Azərbaycanın Qarabağ bölgəsində ermənilərin təxribatlarını qınadılar. Biz bir çox xəbər saytlarında, televiziya kanallarında və yerli mətbuatda hadisələr haqqında ətraflı və obyektiv məlumat verilməsini təşkil etdik. Keçirdiyimiz toplantıda bizimlə yanaşı iştirak edən bütün siyasi partiyalar və dərnəklər, İzmirdə təhsil alan tələbələrimiz və digər vətəndaşlarımız ermənilərin təxribatlarını pisləməklə onların işğal olunmuş torpaqlardan çıxarılmasını tələb etdilər. Dünya Azərbaycanlılarının Konqresi olaraq biz hər zaman Azərbaycanın, dövlətimizin və ordumuzun yanındayıq, torpaqlarımızın düşmən işğalından qurtulması üçün boynumuza düşən hər şeyi etməyə hazırıq”.

Bu məktubların içində Türkiyə vətəndaşlarının müraciətləri isə Azərbaycan və Türkiyənin qırılmaz tellərlə bağlı olduğunu bir daha sübut etdi. İstanbuldan Akın Kılıç cənab İlham Əliyevə öz Prezidenti kimi müraciət edir: “Hörmətli cənab Prezidentim! Təmas xəttində ermənilərin törətdikləri təxribatlar zamanı cəbhədə şəhid olan əsgərlərimizin valideynlərinə Allahdan səbir diləyir, Sizə və Azərbaycan xalqına başsağlığı verirəm. Könüllü olaraq cəbhəyə yollanıb döyüşmək üçün Sizin əmr və göstərişlərinizi gözləyirik. Cənab Prezident, mən işimlə əlaqədar Azərbaycanın cəbhəboyu bölgələrində çalışdığım üçün həmin ərazini yaxşı tanıyıram. Sizə, Azərbaycan xalqına canım fəda olsun. İki övladımla bərabər əmrinizi gözləyirəm”.

Dövlət başçısının ünvanına daxil olan saysız məktublar son döyüşlərin ölkədə yüksək əhvali-ruhiyyə yaratdığını aydın göstərir. Xalq torpaqlarımızın işğaldan azad olunması üçün Ali Baş Komandanın ətrafında sıx birləşməyə hazır olduğunu nümayiş etdirir və bu yolda Prezidentin həyata keçirdiyi qətiyyətli siyasəti birmənalı dəstəkləyir. Məhz xalqla iqtidarın eyni məqsəd naminə bu cür birləşməsi düşməni vahiməyə salıb. İşğalçı Ermənistanın qorxudan doğan yalan bəyanatlarının ardı-arası kəsilmir. Beynəlxalq qurumların rəhbərləri, bir sıra dövlətlərin yüksək çinli məmurları Azərbaycan Prezidentinə minnətçi düşüblər. Eyni zamanda dost ölkələrin, xüsusən qardaş Türkiyənin dəstəyi isə son məqsədə doğru inamla getməyimiz üçün bizə ruh və əzm verir. Artıq heç kimin şübhə etmədiyi böyük Qələbəni labüd edən də əsas bunlardır.

Azərbaycan xalqı, dünya azərbaycanlıları cənab İlham Əliyevə bitib-tükənməz məhəbbətini bildirir!

Qardaş Türkiyə, dost ölkələr dəstəyini göstərir!

Dünya ictimai fikri İlham Əliyevin mövqeyini müdafiə etdiyini sərgiləyir!

Bugünədək heç kəsin edə bilmədiyini cənab İlham Əliyev etdi!

Bir həmləyə təkcə itirilən mövqelərin bir qismini geri qaytarmaqla yanaşı, dünya ictimai rəyini də Azərbaycan həqiqətlərinə doğru dəyişdi!

Hərb və diplomatiya cəbhəsində eyni vaxtda iki möhtəşəm qələbə qazandı!

Xalqımız öz rəhbəri ilə qürur və iftixar duyur, ona inanır, güvənir, itmiş ümidlərini dirçəltdiyi üçün minnətdarlığını bildirir.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***